## EKOLOJİ KƏND TƏSƏRRÜFATININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Həşimova A.V.**

*AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu*
*arzu_hv@mail.ru*

Hazırda qloballaşan dünyada enerji və ərzaq təhlükəsizliyi hər bir ölkənin iqtisadi təminatının əsasını təşkil edir. Ölkəmiz özünün enerji təhlükəsizliyini tam təmin etsə də, ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilməli bir sıra tədbirlər hələ də qalmaqdadır. Uzun müddət kənd təsərrüfatında mineral gübrələrin, kimyəvi maddələrin, yeni texnologiyaların intensiv tətbiqi torpağın münbitliyinin azalması ilə nəticələndi. Ekoloji kənd təsərrüfatı sisteminin tətbiqi əhalinin sağlam qida ilə təmin edilməsinə, yüksək əlavə dəyər yaradan və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının xarici bazarlara ixracına şərait yaradır.

Kimya sənayesi və texnika inkişaf etdikcə kənd təsərrüfatı çox böyük dəyişikliklərə məruz qalmışdır. Nəticədə kənd təsərrüfatına yararlı torpaqların strukturu pozulmuş, ətraf mühit çirklənmiş və landşaft korlanmışdır. Qida məhsullarının keyfiyyəti pisləşmiş, insanların sağlamlığı üçün təhlükə yaranmışdır və s.

Ekoloji kənd təsərrüfatı isə əksinə, ətraf mühitə öz müsbət təsirini göstərir. Ekoloji təsərrüfat yerli ehtiyatlara əsaslanaraq bioloji balansın saxlanmasına və optimal ekoloji proseslərin inkişafına zəmin yaradır. Torpaqların və ətraf mühitin qorunması ekoloji kənd təsərrüfatının əsas məsələsidir və onun mahiyyətini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sektorunun Strateji yol xəritəsi"ndə qeyd olunur ki, ətraf mühitin qorunmasında ənənəvi kənd təsərrüfatı məhsulları istehsalı ilə yanaşı ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması önəmli yer tutur.

Ekoloji kənd təsərrüfatı flora və faunanın, həmçinin təbiətin rəngarəngliyini saxlamaq məqsədilə dövrümüzün tələbatından doğan tarixi zərurətdir. Dünya təcrübəsi göstərir ki, davamlı kənd təsərrüfatı və ekoloji əkinçiliyin inkişafı üçün, kənd təsərrüfatına yararlı torpaqlarının istifadəsini optimallaşdırmaq, gübrə və pestisidlərin istifadəsinə ciddi nəzarət etmək, eyni zamanda heyvan və bitkilərin genofondunu qoruyub saxlamaq lazımdır. Son 20-25 ildə dünyanın bütün sivil ölkələrində səbatlı (davamlı) inkişaf hərəkatı genişlənməkdədir. Bu hərəkatın mahiyyəti ondan ibarətdir ki, təbii resurslardan bu gün elə istifadə etmək lazımdır ki, gələcək nəsillər üçün də uyğun start şəraiti qorunub saxlanılsın. Bunun əsasını isə ekoloji kənd təsərrüfatı təşkil edə bilər.

Ekoloji kənd təsərrüfatının ilkin məqsədi ekoloji təmiz ərzaq istehsal





etməkdir. İstehsal edilmiş keyfiyyətli məhsul təzə, təbii, xoşagələn və kənar maddələrdən təmiz olmalıdır. Belə təmiz və keyfiyyətli məhsul isə ekoloji kənd təsərrüfatında istehsal edilə bilər.

Ekoloji kənd təsərrüfatı - ərzaq, lif, oduncaq və s. məhsulların təbii, sosial və iqtisadi sağlam istehsalına yardım edən kənd təsərrüfatı sistemidir. Ekoloji kənd təsərrüfatı - özünü tənzimləyən, davamlı, müvazinətli aqroekosistemlərə əsaslanır. Bu sistem ən yüksək imkanlara malikdir və bunun əsasında yerli və bərpaedilə bilən resurslar durur. Bu sistemdə bitki və heyvanların təbii imkanları nəzərə alınır və torpaq münbitliyi müvəffəqiyyətlə istehsalın açarı hesab olunur. Ekoloji kənd təsərrüfatının əsas məqsədləri: lazımi miqdarda, yüksək keyfiyyətli ərzaq məhsulları istehsal etmək; torpaq flora və faunası, mikroorqanizmlər, bitki və heyvanların qarşılıqlı əlaqələndirməsi yolu ilə bioloji dövranı canlandırmaq və onu gücləndirmək; torpaq münbitliyini qorumaq və yüksəltmək; yerli kənd təsərrüfatı sistemlərində bərpaedilə bilən resurslardan istifadə etmək; istehsal fəaliyyəti nəticəsində ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və s.

Bu sahənin tənzimlənməsi üçün müvafiq hüquqi baza yaradılsa da, sertifikatlaşdırma sistemi, statistika bazası mövcud deyil və bazar kanalları formalaşmayıb. Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğunun təmin edilməsi, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqinin məhdudlaşdırılması ilə bağlı tənzimləyici tədbirlərin gec həyata keçirilməsinin ətraf mühitə fəsadları ciddi ola bilər.